Ədalət.- 2023.- 25 avqust.- S.8.

***Cümşüd Aydəmir***



# *Ruhuna min rəhmət, ay Məmməd Araz!*

**Ruhuna min rəhmət, ay Məmməd Araz!**
**Hələ də çəkidə vurur tərəzi,**
**Dünya sancı çəkir artıb mərəzi,**
**Sakitlik pozulub nədir qərəzi**
**bilinmir, işimiz deyildir taraz,**
**Ruhuna min rəhmət, ay Məmməd Araz!**

**”Bu dünya düzəlmir,düzəlmir baba”,**
**Söz urvatdan düşüb çox etdin çaba.**
**Gərək mən də alam əlimə yaba,**
**Düşündüm, gözləyəm səbr edəm bir az,**
**Sənsiz nə ləzzəti,ay Məmməd Araz?**

**Bildim,”Yol ayrıcı”nda çəkmisən həsrət**
**Sözdən söz çəkənlər etdilər qeybət,**
**Mən böyüklüyünə eylədim heyrət,**
**Bu dünya fanidir heç kimə qalmaz,**
**Sən belə deyərdin, ay Məmməd Araz!**

**Sən şeir adına şöz cücərtmisən,**
**Sözlərə bal qatıb düz göyərtmisən,**
**'Atamın kitab”ın sən öyrətmisən,**
**”Öyrətmən” olmusan, səndən heç olmaz,**
**Ruhuna salavat, ay Məmməd Araz!**

**”Səndən bir ömürlük xatirə”qaldı,**
**Minlərlə şeirlər, nəzirə qaldı,**
**”Bir tale oyunu cüt zərə”qaldı,**
**Şeirdə zirvəsən əlim də çatmaz,**
**Əhsən! Böyük kişi ay Məmməd Araz!**

**Bu il doxsan yaşın ”olacaq” dədə,**
**Yetmiş il yaşadın xəstə, pəjmürdə,**
**Cümşüd Aydəmirlə o görüşündə,**
**Dediyin sözlərdən bir də heç olmaz,**
**Dahi söz ustası ay Məmməd Araz!**

## *Əbədiyyət nəğməsi*

**Adına bağlıdır doğma diyarın,**
**Ey ana yurdumun şanı, şöhrəti!**
**Xilaskar oğlusan Azərbaycanın,**
**Tanrım sənə vermiş belə qüdrəti!**

**Tarix şəxsiyyətlər verir dünyaya,**
**Şəxsiyyət tarix də yarada bilir!**
**Sən sübut elədin bütün cahana,**
**Şəxsiyyət bəşəri ola da bilir!**

**Qərinələr ötüb illər keçəcək,**
**Gələcək xatırlar nur şəxsiyyəti!**
**İnsanlar həmişə səni sevəcək,**
**Özünə haqq etdin əbədiyyəti!**

---

***Xoşqədəm Hidayətqızı***